

# "Sözüm varsa, izim də var!"

*Yusif Günaydın*

**...İnsanın insana ehtiyacı var, - belə yazır şair dostumuz Yusif Hüseyn! Haqlıdır müdrik qələm sahibi! İnsan sosial varlıqdır, o ünsiyyətsiz yaşaya bilməz, insanın nəzəri insanın üstündə olmalıdır! Amma, öz aramızdır, insan var, insan var da...**

Qədim yunan filosofu Diogen gündüzün günorta çağı əlinə çıraq alıb ətrafı dolaşırmış. Rastına çıxanların xəfif bir ironiya ilə ona ünvanladığı "nə axtarırsan?" sualına alimin cavabı qısa olub:

- İnsan axtarıram!

Bəli, insanların əhatəsində ola-ola bəzən çıraq götürüb insan axtarışına çıxmağa məcbursan. Hər adamın ağlı kəsən vaxtlarından, gənc yaşlarından ömür yolunda rastına işıqlı bir şəxs çıxarsa, o gəncin taleyində, onun könül dünyasının, zövqünün, vətəndaşlıq mövqeyinin formalaşmasında kifayət qədər önəmli rol oynaya bilər, təki Allah mərdiməzardan qorusun!

Bu mənada Yusif Hüseynin bəxti gətirib, gənc yaşlarından qənşərinə halal, xeyirxah, rəhmdil, mehriban insanlar çıxıb, parlaq zəka, böyük istedad sahibləri ilə ünsiyyətə girmək qismət olub ona! Şairin özünün dediyi kimi "Abidə insan", dədə ozan aşıq Şəmşir, Avropa ədəbiyyatı incilərini dilimizə çevirib, ədəbi fikir tariximizi zənginləşdirən, Səməd Vurğunun "Azərbaycan" şeirini ingilis dilinə tərcümə edərək, dünya miqyasına çıxaran şair, tərcüməçi, pedaqoq, gözəl, qayğıkeş insan Ənvər Rza, qoşmaları, təcnisləri bu gün də dillər əzbəri olan el şairləri Bəhmən Vətənoğlu (Yusifin xalası oğludur), Şücaət, müdrik söz sərrafı, könüllər şairi Məmməd Aslan, böyük istiqlal nəğməkarı Xəlil Rza Ulutürk onun könül dostu, can sirdaşı, məslək qardaşı, yol yoldaşı olub, belə işıqlı şəxsiyyətlərlə ünsiyyət qurmaq düşüb qismətinə, onlardan ilham alıb, ibrət götürüb. Bu siyahını genişləndirmək çətin deyil, amma Yusif Hüseyn şəxsiyyətindən söhbət açarkən bir mühüm amili də ön plana çəkməliyik - saf havasını uda-uda boya-başa çatdığı, hər çiçəyinin, hər otunun adını əzbər bildiyi, hər qayasına, hər daşına yaxşı bələd olduğu saz havacatı ilə aşıq şeiriyyatına köklənmiş Kəlbəcər dünyasını!

**Kəlbəcər! - Daşımdı, qayamdı mənim,**
**Kəlbəcər! - Kökümdü, mayamdı mənim.**
**Kəlbəcər! - Ömrümün dərd yapıncısı,**
**Kəlbəcər! - Gözümdə ziyamdır mənim!**

Belə yazır ana yurdu, ata ocağı haqda Kəlbəcər ədəbi mühitinin daha bir dəyərli yetirməsi Yusif Hüseyn! İlk dəfə bu adı eşitdiyim tarix dəqiq yadımdadır - 22 iyun, 2006-cı il. Ona görə yaddaşıma yazılıb ki, yenicə yaranmış, o vaxt hələ bir yaşı tamam olmamış İctimai Televiziyanın ilk iri həcmli kütləvi canlı efir proqramlarından olan Xəlil Rza Ulutürkün xatirə gecəsi həmən tarixə, istiqlal şairinin cismən bizdən ayrı düşdüyü günə təyin olunmuşdu. Verilişin müəllifi və aparıcısı mən idim. Canlı efirə dəvət alanların arasında Yusif Hüseynin həmyerlisi, orta məktəbdə onun ədəbiyyat müəllimi olmuş ustad Məmməd Aslan da var idi. Ruhu şad olsun! Məmməd bəy Xəlil Rzanı bir şəxsiyyət kimi səciyyələndirərkən dedi ki, şair işıqlı insanların izinə düşüb, doğma diyarı qarış-qarış gəzər, belə səyahətdən zövq alardı. Bu işıqlı şəxslərdən biri də Xəlil bəyin Kəlbəcərli dostu şair Yusif Hüseyn idi, hər dəfə Kəlbəcərə gələndə ona qonaq düşərdi...



Mən bir qədər kənarda, aparıcı üçün ayrılmış masa arxasında əyləşib çıxış edənlərə diqqət yetirirdim. Unudulmaz Xəlil Rza Ulutürkün Kəlbəcərdəki dostunun adını eşidən kimi bu isim o dəqiqə mənim hafizəmə yazıldı və dərhal Yusif Hüseynə böyük rəğbət yarandı ürəyimdə. Dərk etdim ki, Yusif Hüseynin Xəlil Rza ürəyində yeri olubsa, deməli adaşım olduqca ləyaqətli insandır!

Bir müddət sonra İctimai Televiziyada "Kəlbəcər şairləri" adlı bir bədii layihəni ekranlaşdırdım. Dəvətlilər arasında Yusif Hüseyn də var idi. Bu sadə, səmimi və təvazökar insanın yurd sevgisi, vətən məhəbbətinə heyran kəsildim, bu böyük, atəşin məhəbbətin şair yaradıcılığının ana xətti olduğunu yəqin etdim...

İctimai Televiziya və Radio yayımları şirkətinin gözəl çağları idi. Bu şirkət qısa müddətdə "xalqın televiziyası" "xalqın radiosu" adını qazanmışdı. O illər mən rəhbərliyin məsləhəti ilə radio ilə də əməkdaşlığa cəlb olundum. Yenə də qısa müddət ərzində müəllifi və aparıcısı olduğum "Günün sonu" proqramı geniş dinləyici auditoriyası qazana bildi. Gecə yarısına qədər davam edən bu verilişin son saatı interaktiv rejimdə efirə ötürülürdü, yəni dinləyicilərlə canlı ünsiyyət yaradılır, müzakirəyə çıxarılmış mənəvi-əxlaqi mövzu ilə bağlı auditoriyaya dinləyici rəyləri təqdim olunurdu. Respublikamızın demək olar ki, hər bucağından, hətta yaxın xarici ölkələrdən də studiyaya çoxlu telefon zəngləri daxil olur, dinləyicilər böyük həvəslə müzakirəyə qatılıb, fikir bildirirdilər. Bir axşam belə zənglərdən biri də studiyaya İsmayıllı rayonundan, Girdmançay ərazisindən gəldi. Dinləyici məni salamlayan kimi onu səsindən tanıdım. Çoxdan idi ki, Yusifin zəngin tembrli bariton səsini eşitmirdik. Demə uzun müddətdir ki, texniki təhsili olan şair Girdmançay həndəvərindəki inşaat şirkətində çalışır, gecə də, gündüz də çay qırağında yerləşən "ofisində" qalır. Qaranlıq düşəndən sonra tənha qaldığı məqamlar tranzistorunu 90 FM-ə, İctimai Radionun dalğalarına kökləyir, bu radionu dinləməkdən zövq alır, özəlliklə "Günün sonu" proqramı onun böyük marağına səbəb olur. Bu sözləri studiyaya, canlı efirə telefon açan şairin dilindən mənimlə yanaşı bütün dinləyici auditoriyası da eşitdi. Çox çəkmədi ki, redaksiyaya, mənim ünvanıma günü-gündən artan dinləyici məktubları daxil olmağa başladı. Yusif Hüseyn də biri-birinin ardınca "Günün sonu"nun poçtuna 4 geniş məzmunlu məktub göndərdi. Bu məktublar aydın, səlist xətlə yazılmışdı, səliqə-səhmanı ilə seçilirdi.

Yusif Hüseynin məktubları onu mənə daha yaxından tanıtdı, şairin dünyagörüşünün, mütaliə dairəsinin genişliyinin şahidi oldum, bu qələm sahibinin vətəndaşlıq mövqeyinin fəallığını müşahidə etdim. Bu məktubların ictimai məzmun daşıdığını görüb, onlardan müəyyən fraqmentləri dinləyicilərə təqdim etmək qərarına gəldim və bu təşəbbüsümdə yanılmadım.

Yusif Hüseynin məktubları dinləyicilərin qəlbində geniş əks-səda verdi. Çoxdan, hələ Sovet dövründən mənə ünvanlanmış tamaşaçı və dinləyici məktublarını qoruyub saxlayıram. Yusifin də məktublarına şəxsi arxivimdə yer ayırdım. "Günün sonu" proqramının efir həyatı başa çatandan illər sonra şair dostum o məktubları məndən geri istədi. Bir müddət sonra "Kəlbəcər dünyası. Ədəbi xatirələr" toplusuna daxil edib, bu yeni, maraqlı kitabı ilə birlikdə özümə qaytardı. Bununla da bu məktublar sanki yenidən doğulub bu dəfə oxucularla görüşə gəldi. Doğru deyirlər ki, əlyazmaları yanmır. Bu məktubların özü də müəllifin yurd sevgisi, torpaq həsrətinin bir ifadəsidir. 20 ildən yuxarıdır ki, həssas şair ürəyi yurd nisgili ilə göynəyir. İllərdir ki, minlərlə həmvətənimiz kimi Yusifin də "gözləri yol çəkir vətənə sarı..." Bu bir kitaba, beş kitaba, bir dastana, beş dastana sığmayan ağır dərddir. Bu dərdə dözə bilməyən ürək yaralıdır gecələr də rahatlıq tapa bilmir:

**Yusif sirdaş olmaz yoldan ötənnən,**
**Mənə qalan sənsən doğma vətənnən.**
**Görürəm əl çəkən deyilsən mənndən,**
**Gecə yarı oldu, dur yataq dərdim,**
**Sənə yalvarıram qoy yataq, dərdim!**

Yurd-yuvalarından perik düşməyə məcbur edilənlərin ürəyində yurd-yuva salmış dərd şairin yaradıcılığında poetik ümumiləşdirmələrlə ümumxalq dərdinə çevrilib, fəlsəfi kateqoriya səviyyəsinə yüksəldi. Nə yaxşı ki, şeir var, yaxşı ki, dərdin tüğyan etdiyi ağır məqamlarda şairin əlində qələm, masasının üstündə ağ varaq var. Bu canlar üzən, nəfəslər kəsən dərd sətir-sətir misralanıb varağa düzülür, XXI əsr milli poeziyamızda vətənində vətənsiz yurdunda qərib olmağa məcbur edilənlərin qəm dastanı yazılır. Yusif Hüseyn bu qara dastanı yazıb tariximiz unudulmasın deyə, gələcək nəsillərə yadigar verənlərin ön sırasındadır:

**Könlümdə bir elin odu yaşayır,**
**Qohumu, qardaşı, yadı yaşayır.**
**Nə qədər Kəlbəcər adı yaşayır,**
**Şeir təşnəsi var, şeir acı var!**

Doğru deyirlər ki, şair mənsub olduğu xalqın dərdlərinin tərcümanıdır:

**Əzizim özgə dərdi,**
**Çəkən yox özgə dərdi.**
**O bağ mənim bağımdı,**
**Mən əkdim, özgə dərdi.**

**Əzizim yaşı gələr,**
**Qurusu, yaşı gələr.**
**İçimdə dərd üyünər,**
**Gözümdən yaşı gələr.**

Yusif Hüseynin yaratdığı bayatılar minillik zəngin ədəbi ənənəni XXI əsrə bağlayan və yeni əsrdə ləyaqətlə yaşadan dəyərli örnəklərdir. Amma elə çıxmasın ki, şairin yaradıcılığında obrazlaşıb sətir-sətir, bənd-bənd fəryad edən el dərdi oxucunu bədbinliyə sürükləyib, onu naümid, naçar edir. Bu dərdin poetik ifadəsində xeyirin şər üzərində qələbəsinə, haqqın gec-tez nahaqqı üstələyəcəyinə bir inam var!

Yəqin ki, dilçi alimlərimiz Kəlbəcər dialektinin tədqiqi ilə məşğul olublar.

Yusif Hüseynin şeir dünyasında bu unudulmuş dialekt nümunələri bərq vurub, işıldayır, zəngin məna çalarları ilə üzə çıxır, şeirə bəzək gətirir, rəng qatır. Onun misralarında "Girdın", "Yığval", "Külk", "Kəfrəm" və bir çox digər yerli dialektə, el dilinə məxsus sözlər gözə dəyir, müəllif bu sözləri müasir şeirə gətirməklə onları arxaiklikdən çıxarıb, yeni həyata qovuşdurur, nəticə etibarı ilə ədəbi dilimizin leksik fondunun zənginləşməsinə xidmət edir, ömrünün illərini misra-misra kitablara köçürüb bu illərin izlərini oxuculara ərməğan edərək irəliləyir. Şair ömrünün 70-ci onilliyinin birinci yarısı arxada qaldı artıq...

**Hardadı gəncliyin qumaş yolları?**
**Qarşıda Yusifin çaş-baş yolları.**
**Bu çınqıl yolları, bu daş yolları**
**Üz tutub gedirəm daşıma sarı...**

Yenə də haqlıdır şair, bu misralar oxucu ovqatına xəfif bir məhzunluq çiləsə də, həqiqəti ifadə edir. Çünki ilk addımlarımızı atdığımız andan "uzun, incə bir yoldayıq" hamımız! Həyat nə nağıldır, nə əyləncə! Fələk hər kəsi öz daşına qovuşdurana qədər onun başı daşdan-daşa dəyir! Amma bu da bir həqiqətdir ki, bu fani aləmdəki ömür baqi dünyadakı əbədi ömürə bir hazırlıqdır. Tale bizlərə haqq dünyasında əbədi ömür qazanmaq şansını bu dünyada verir. Odur ki, sözü daşdan keçən kişilər əsrlər öncə daş altına köçsələr belə, onların izləri bu günü də göz qabağındadır, arif olanlara yol göstərir. Şairin izləri onun sözlərindən yaranıb ürəklərə düşür, hafizələrə həkk olunur:

**Ürək varsa, közüm də var,**
**Közüm varsa, sözüm da var.**
**Sözüm qalsa, izim də var,**
**Sözüm yoxsa, izim yoxdu.**

**Xoşbəxtlikdən şair dostumuz yaradıcılığının ən məhsuldar dövrünü yaşayır. Şeir, poema, publisistika, memuaristika, yeni kitablar, yeni nəşrlər. Hələ qəzet, jurnal məqalələrini, internet nəşrlərini demirəm. Yusif Hüseynin sözü tükənmir... Onun sözü də qalacaq, izi də! Qarşıdan gələn yubileyləri doğma Kəlbəcərin zümrüd qoynunda qeyd etmək arzusu ilə adaşımı ürəkdən təbrik edirəm!**